**DİQQƏT!**

**Əziz şagirdlər.**

Açıq tipli sualların cavablarını kağızda qaralayarkən nəzərə alın ki,

1. *Cavablar soldan sağa doğru qaralanmalıdır. Məsələn sualın cavabı "34"-dürsə, bu, cavab kağızında aşağıdakı kimi qaralanmalıdır.*




2. *Seçim (doğru və ya yanlış olanları seçin) və xronoloji ardıcıllıq tipli suallarda "vergül" dairəsi əsla qaralanmamalıdır. Məsələn sualın cavabı 1,3,5-dirsə, bu, cavab kağızında aşağıdakı kimi qaralanmalıdır.*




3. *Bir sütunda sadəcə 1 dairə qaralana bilər. Məsələn sualın cavabı 27-dirsə, bu, cavab kağızında aşağıdakı kimi qaralanmalıdır.*




## İNGİLİS DİLİ

**1.** How many sentences with modal verbs are correct?

- They hadn`t to sleep in the same room.
- Do I have to suggest new ideas?
- They were able find things in common.
- You shouldn`t be desperate.
- Leyla couldn't go to the cinema, because she had to translate an important article.

A) 0 B) 1 C) 2 D) 3 E) 4

**2.** Choose the correct pronouns.

*If you want to live or study in a foreign country, first of all, … important to learn … language.*

A) it, it's, it's B) it's, its, its C) its, it's, it
D) it's, its, it E) it, it's, its

**3.** Choose the correct variants.

1. *to make a friend*
2. *to make somebody to be happy*
3. *to make a dress*
4. *to make progress*
5. *to make somebody to work*

A) 3, 4, 5 B) 2, 3, 5 C) 1, 2, 5
D) 1, 3, 4 E) 1, 2, 4

**4.** Match the words with their definitions.

| | | |
|---|---|---|
| 1. promote | 2. frame | 3. regulation |
| 4. tide | 5. fault | |

a. *the rules made by authority*
b. *mistake*
c. *the regular change in the level of the sea*
d. *a supporting structure of the building*
e. *to help somebody to become popular*

A) 1-a, 2-c, 3-e, 4-b, 5-d
B) 1-e, 2-d, 3-a, 4-c, 5-b
C) 1-e, 2-b, 3-a, 4-c, 5-d
D) 1-b, 2-d, 3-a, 4-e, 5-c
E) 1-d, 2-a, 3-e, 4-b, 5-c

**5.** Choose the correct pronouns.
*Although his wife didn't tell … … about his condition, … of his friends got the news from others and tried to help him.*
A) anybody, something, any
B) anybody, anything, some
C) something, any, some
D) any, anything, some
E) somebody, anything, some

**6.** Choose the correct modal verbs.
I. *As the weather was cold, neither my cousins nor my brother … to play in the yard.*
II. *The baby is sleeping in the next room. You … make a noise.*

| | | |
|---|---|---|
| a- were able | b- must | c- wasn't able |
| d- shouldn't | e- haven't to | f- was able |

A) I-a, II-b B) I-b, II-d C) I-f, II-d
D) I-c, II-e E) I-f, II-e

**7.** Write the given sentence in the Passive Voice.
*What do you plan for weekends?*
A) What is planned for weekends?
B) What you planned for weekends?
C) What are you planned for weekends?
D) What has been planned?
E) What planned for weekends by you?

**8.** Match the correct variants with the phrasal verb "***look***".
1. You can … the list of job opportunities which are offered by our company.
2. I cannot decide who those babies … , their mother or father.
3. We shall … your dog while you are away on a holiday.
4. I'm leaving the town for a week, but I … seeing you soon again.

| | | |
|---|---|---|
| *a) look like* | *b) look forward to* | *c) look at* |
| *d) look through* | *e) look up* | *f) look after* |

A) 1-e, 2-b, 3-f, 4-d B) 1-d, 2-c, 3-a, 4-b
C) 1-f, 2-a, 3-c, 4-e D) 1-d, 2-a, 3-f, 4-b
E) 1-b, 2-f, 3-d, 4-a

**9.** How many variants are correct?

| | |
|---|---|
| a tomato soup | useful advice |
| warm air | sand castles |
| an orange juice | interesting job |

A) 2 B) 4 C) 5 D) 1 E) 3

**10.** Choose the correct sentences with the noun in the Possessive Case.
1. *It's only a few minute's walk from here to the station.*
2. *On my way home I met my father's old friend.*
3. *Unfortunately, my mother's left the doctor's prescription (resept) at home.*
4. *The Babayev's workshop was awfully destroyed.*
5. *Those womens' documents are on the table.*
6. *She bought some bread at the baker's.*

A) 1, 3, 5 B) 4, 5, 6 C) 1, 2, 3
D) 2, 4, 6 E) 2, 3, 6

**11.** Which sentences ***can't be*** changed into the Passive Voice?
1. *Colorful parrots live in the rainforests.*
2. *The book costs a lot of money.*
3. *Very few people know this mystery.*
4. *We paint these walls every year.*
5. *A strange man suddenly appeared at the door.*

A) 1, 4, 5 B) 1, 3, 4 C) 2, 3, 5
D) 2, 3, 4 E) 1, 2, 5

**12.** Choose the correct tense forms.
1. *By the time I learnt the truth, they had done all the arrangements.*
2. *They had informed me about the salary, before the results were known.*
3. *When I entered the room, Aynur was cooking the meal.*
4. *If I shall finish university next year, I shall go abroad.*
5. *My cousin wrote me twice since he has gone to France.*

A) 1, 2, 3 B) 1, 4, 5 C) 1, 2, 5
D) 2, 3, 4 E) 3, 4, 5

**13.** Choose the correct conjunctions.

*… the employees … the boss was at the factory when the fire broke out.*

A) Both … and B) Either … nor
C) Neither … nor D) Both … nor
E) Not only … and also

**14.** Make up a sentence.

*1. no sooner 2. than 3. been involved in*
*4. to meet 5. had you 6. this project*
*7. they refused*

A) 1, 7, 4, 2, 5, 3, 6 B) 1, 2, 5, 3, 6, 7, 4
C) 5, 3, 6, 1, 2, 7, 4 D) 1, 5, 3, 6, 2, 7, 4
E) 2, 7, 4, 1, 5, 3, 6

**15.** Choose the correct variant.

*We … solve this problem at once.*

1. would rather to 2. would prefer to
3. were made 4. had better

A) 1, 3 B) 2, 3 C) 1, 4 D) 3, 4 E) 2, 4

**16.** Choose the logically correct words.

1. *Carpets were a part of young girls' … .*
2. *His parents are … . He is 17 years old, but they never let him go out alone.*

a- medicine b- dowry c- overpopulated
d- overprotective e- bully

A) 1-b, 2-d B) 1-a, 2-e C) 1-b, 2-c
D) 1-e, 2-d E) 1-d, 2-e

**17.** Complete the dialogue.

*Aslan:* – Hello, Mr. Hasanli. … … …

*Mr. Hasanli:* – Sure! Aslan. What's the problem? How can I help you?

*Aslan:* – It's about my grades. I study hard for the exams, but I hardly ever get high marks.

A) Can I speak to you for a minute?
B) What kind of exercises will you give me?
C) When will these bad times go away?
D) How can I present my homework project?
E) Will you tell me my exam results?

**18.** Fill in the gaps with correct prepositions.

*Some old people are afraid … using mobile phones. Therefore, they prefer to communicate … others … landline phones.*

A) for / —/ by B) of / with / by
C) of / at / in D) at / with / at
E) of / with / —

**19.** Choose the correct tense forms.

*Yesterday Raul told me that he … Nigar after he … to her.*

A) won't see, talks
B) hadn't seen, talked
C) didn't see, had talked
D) hasn't seen, talked
E) wasn't seen, had talked

**20.** Match the translation of the words correctly.

*1. relatively a) münasibət, yanaşma*
*2. encourage b) təmsil etmək*
*3. approach c) cəsarətləndirmək*
*4. certify d) qismən, nisbətən*
*5. represent e) təsdiqləmək*

A) 1-a, 2-c, 3-b, 4-d, 5-e
B) 1-d, 2-c, 3-a, 4-e, 5-b
C) 1-d, 2-e, 3-b, 4-c, 5-a
D) 1-c, 2-d, 3-e, 4-b, 5-a
E) 1-b, 2-c, 3-e, 4-a, 5-d

***Read the passage and answer the questions 21 – 25.***

*Most countries have realized the importance of education in today's world. It led to the development of many government educational programmes and grants to schools and colleges. Education is very important because it opens doors to brilliant opportunities. Education career cultivates us into responsible citizens and good human beings, into individuals capable of taking the right decisions, and learning from experience.*

*The first time we are introduced to formal education is in school. Schools are institutions that lay the foundation of a child's development. They provide us with knowledge about the world. Schools*

*play a key role in developing children into responsible citizens and good human beings.*

*Real education is not limited to lessons from textbooks, it is obtained from the lessons taught by life. Education is important as it teaches us the right behaviour and good manners.* ***It*** *makes us self-confident, and develops our abilities to think, analyze and judge. The future of a nation is safe in the hands of educated people.*

**21.** The passage is mainly about … … … .
A) the future lessons
B) responsible citizens
C) the importance of education
D) giving grants to schools and colleges
E) educational government programmes

**22.** Which word in the passage means "*to get something by making an effort*"?
A) to introduce B) to provide C) to obtain
D) to realize E) to develop

**23.** The highlighted pronoun "***it***" refers to … .
A) education B) development
C) behaviour D) foundation
E) knowledge

**24.** Which statement ***isn't*** true according to the passage?
A) Children's formal education begins at school.
B) School brings up responsible citizens.
C) Real education is received from the lessons taught not only by school but also by life.
D) The role of education is highly appreciated in the modern world.
E) The future of a nation depends on giving grants to colleges.

**25.** Answer the question according to the passage.
*What does school provide us with?*
A) grants B) opinions C) knowledge
D) countries E) decisions

## ƏDƏBİYYAT

**26.** Nümunədə ***işlənməmişdir*:**
*Qəmlə sevinc bir-birilə dalaşdı,*
*Getdi sevinc, qəm ona bərk əl çaldı.*
*("Apardı sellər Saranı" poemasından)*
A) inversiya B) metafor C) bədii təzad
D) təkrir E) metonimiya

**27.** N.Gəncəvinin "Sultan Səncər və qarı" əsərindən verilmiş parçanın təhlili ilə bağlı ***səhv*** fikri seçin.
*Ah, səndə nə ədalət, nə mərhəmət görürəm,*
*Mən səndə sonsuz zülm və əziyyət görürəm.*
A) Hadisə təhkiyə yolu ilə nəql edilir.
B) Bədii təzad işlənmişdir.
C) Şeir vahidi beytdir, məsnəvi şəklindədir.
D) Qarının dilindən ona hörmətsizlik edən darğaya deyilir.
E) Epik növdə yazılmışdır.

**28.** Əruz vəzni haqqında hansı fikir ***yanlışdır?***
A) Əruz vəznində qapalı hecalar qısa, açıq hecalar isə, əksər hallarda, uzun olur.
B) Əruz vəznli şeirlərdə ahəngi hecaların uzun və qısa tələffüz edilməsi yaradır.
C) Əruz vəznində yazılmış şeirdə misradaxili bölüm təfilənin tələbi ilə yaranır.
D) Əruz vəznində misradakı hecaların sayının bərabər olması zəruri deyil.
E) Ərəb poeziyasında meydana gəlmiş, bütün Şərqə yayılmışdır.

**29.** İ.Nəsiminin "Ağrımaz" qəzəli ilə bağlı düzgün ***olmayan*** fikri seçin.
A) Əruz vəznində yazılmışdır.
B) Qafiyə quruluşu aa, ba, ca, da və s. şəklindədir.
C) Qəzəlin son beytində şair özünə müraciət edir.
D) Şeir vahidi beytdir.
E) Şair özünü gercək aşiq adlandırır.

**30.** S.Ə.Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" əsərinin təhlili ilə bağlı doğru fikri seçin.
A) Mənzum hekayədir.
B) "Qafqaz müsəlmanları" dedikdə mövhumatı yayan ruhanilər nəzərdə tutulur.
C) Əsərdə çar məmurları, din xadimləri əsas satirik tənqid hədəfidir.
D) M.F.Axundzadəyə müraciətlə yazmışdır.
E) Şeir maarifçi əsərdir.

**31.** A.Ələsgərin "Dağlar" şeiri *(Bahar fəsli yaz ayları gələndə...)* ilə bağlı ***səhv*** fikri seçin.
A) Dağların pərişan vəziyyətinin sözlə təsvirinə yer verilmişdir.
B) Qafiyə quruluşu abcb, dddb, eeeb ... şəklindədir.
C) Peyzaj lirikasına aid bədii nümunədir.
D) Optimist, nikbin əhval-ruhiyyə oxucuya müsbət təsir edir.
E) Şair sonuncu bənddə özünü Məcnuna bənzədir.

**32.** Ş.İ.Xətayinin "Bahariyyə" şeirindən seçilmiş beytdə hansı fikir ifadə olunmuşdur?
*Yer geydi qəbayi-xizrpuşan,*
*Cümlə dilə gəldi ləbxamuşan.*
A) Yer qışın soyuğundan canını qurtarmışdır, artıq hər tərəf günəş şüalarının altındadır.
B) Yer soyuq qardan olan paltarını geyinibdir, bütün otlar, ağaclar qışın şaxtasında dilə gəlibdir.
C) Yer yaşıl don geyinibdir, quşların oxuduğu nəğməyə bütün təbiət qulaq verir, ətrafdan güllərin qoxusu gəlir.
D) Yer başdan-başa yaşıllığa bürünübdür, bahar öz gözəlliyi, təravəti ilə lal-dinməzləri belə dilə gətirir, fərəhləndirir, sevindirir.
E) Axşam çökür, yer öz qara libasını geyinir, bu hal qarşısında bütün bülbülər dilə gəlir.

**33.** Q.Zakirin "Durnalar" şeiri ilə bağlı ***səhv*** fikri seçin.
A) Şair şeiri Sibirdə sürgündə olarkən yazmışdır.
B) Şeirdə qürbət sıxıntısı, canan həsrəti əks olunmuşdur.
C) İctimai məzmunlu qoşmadır.
D) "Laçın yatağıdır bizim məkanlar" – yazarkən gizli eyham vurulmuşdur.
E) Heca vəznində, qoşma janrında, bəndlər şəklindədir.

**34.** Müqayisə cədvəlindəki ***səhvi*** tapın.

| "Durnalar" Q.Zakir | "Ağrımaz" İ.Nəsimi |
|---|---|
| A) Lirik növdədir.<br>B) Heca vəznindədir. | D) Əruz vəznindədir.<br>E) Şeir vahidi beytdir. |
| C) Yazılı ədəbiyyat nümunəsidir. | |

**35.** Hansı fikir qəzəl janrına aid edilə ***bilməz:***
A) Qədim və orta dövr ədəbiyyatımızda ən geniş yayılmış janrlardandır.
B) Beş, yeddi və daha artıq beytdən ibarət olur.
C) Qəzəlin birinci beyti *ab,* digər beytləri isə *cb, db* və s. qafiyələnir.
D) Əruz vəznində yazılır.
E) İlk beyti "mətlə", son beyti "məqtə" adlanır.

**36.** Aşağıdakılardan biri İmadəddin Nəsiminin "Ağrımaz" qəzəli ilə eyni vəzndə olsa da, eyni bəhrdə deyil:
A) "Hayıf ki, yoxdur" (M.P.Vaqif)
B) "Söz" (M.Füzuli)
C) "Qafqaz müsəlmanlarına xitab" (S.Ə.Şirvani)
D) "Durnalar" (Q.Zakir)
E) "Gəlsin" (Q.Zakir)

**37.** Verilmiş nümunədə üzərində hansı rəqəm yazılmış sözlər birlikdə təşbeh yaradır?
*Yelkənsiz¹ bir gəmi², ruhsuz³ bir cəsəd⁴,*
*Budur azadlığa⁵ biganə⁶ millət⁷!*
A) 1,2; 3,4 B) 5,6 C) 6,7 D) 2,7; 4,7 E) 1,4

**38.** “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy” ilə bağlı cədvəldəki uyğunsuzluğu müəyyən edin:

| | Səbəb | Nəticə |
|---|---|---|
| A) | Qazan məclisdə sağına, soluna baxır. | Qazan çox sevinir. |
| B) | Uruz “yağı” sözünün mənasını soruşur. | Qazan “Biz onlara yetsək, biz öldürərik; onlar bizə yetsə, onlar öldürərlər” deyir. |
| C) | Uruz Qazanın döyüşdüyünü görüb cuşa gəlir. | Uruz yoldaşlarını döyüşə səsləyir. |
| D) | Qazan meyitlərin arasında oğlunu tapmır, onun qızıl dəstəkli qamçısını tapır. | Qazan Uruzun qaçıb anasının yanına getdiyini düşünür. |
| E) | Uruz əsirlikdən xilas olur. | Qazan qırx evli qul ilə qırx cariyəni azad edir. |

**39.** “Dastani-Əhməd Hərami” əsərinə aid yanlış fikri seçin:
A) Epik əsərdir. B) Poemadır.
C) XIII əsrə aiddir. D) Ana dilində yazılmışdır.
E) Müəllifi İzzəddin Həsənoğludur.

**40.** Şah İsmayıl Xətayinin “Bahariyyə” (“Dəhnamə”) əsərində hansı subyekt səhv göstərilmişdir?
A) Başçıya ehtiyac duymur – lalə
B) Fəğanə düşdü – quşlar
C) Sərvin ətəyini tutdu – su
D) Saçını daraqla daradı – qumru
E) Qu gərdəninə bənzəyir – şax üstündəki qabaqlar

**41.** Saib Təbrizinin “Söz” qəzəlində müəllif söz üçün başından keçdiyini deyərək özünü nəyə bənzədir?
A) Qələmə B) Qula C) Vəzirə
D) Sünbülə E) Durnalara

**42.** Məhəmməd Füzulinin “Söz” qəzəlində müəllif niyə sözə həyat verməyi tövsiyə edir?
A) Çünki hər kəsin sözü hansı dəyərdədirsə, özü də o dəyərdədir.
B) Söz sirlər xəzinəsinin xəzinədarı olduğu üçün.
C) Söz müqəddəs olduğu üçün.
D) Öldükdən sonra sözün insanı diriltməsi üçün.
E) Çox danışmaq insanı hörmətsiz etdiyi üçün.

**43.** “Koroğlu ilə Bolu bəy” qolunun məzmununa aid düzgün fikri seçin:
A) Koroğlunun Ələmqulu xanla düşmən olması Hasan paşanı sevindirir.
B) İsabalı Toqata gedərək Koroğlunu quyudan çıxarır.
C) Qoldakı son döyüşdən sonra dördü kişi, biri qadın olmaqla beş nəfər Çənlibelə doğru yola düşür.
D) Hasan paşadan və Ərəb Reyhandan fərqli olaraq, Bolu bəy istəyirdi ki, Koroğlunun üzərinə birinci özü hücum çəksin.
E) Çənlibeldə Koroğlu özünü qoruqçu kimi təqdim edərkən Mehtər Murtuz onu tanıyır və qışqıraraq onun Koroğlu olduğunu deyir, Koroğlunun qollarını bağlayırlar.

**44.** İlk sütundakı məntiqi əlaqəni müəyyən edərək ikinci sütunda sual işarəsinin yerinə yazılmalı ifadəni müəyyən edin:

| “Söz” | “Durnalar” |
|---|---|
| Məhəmməd Füzuli | Qasım bəy Zakir |
| Saib Təbrizi | ? |
| Qəzəl | Qoşma |

A) Heca vəzni B) Qoşma
C) Nizami Gəncəvi D) 4+4+3
E) Molla Vəli Vidadi

**45.** Aşağıdakı dastanlardan biri növünə görə digərlərindən fərqlidir:
A) “Koroğlu” B) “Abbas və Gülgəz”
C) “Tahir və Zöhrə” D) “Aşıq Qərib”
E) “Şah İsmayıl”

**46.** Qurbaninin "Bənövşəni" şeiri ilə bağlı yanlış fikri müəyyən edin:
A) Heca vəznindədir.
B) Qoşma janrındadır.
C) Rədifdən istifadə edilmişdir.
D) Bədii sualdan istifadə edilmişdir.
E) Müəllif özünə müraciət etmişdir.

**47.** Xaqani Şirvaninin "Gənclərə nəsihət" əsəri ilə bağlı yanlış fikri seçin:
A) Şeir vahidi beytdir.
B) Fars dilində qələmə alınmışdır.
C) Pis adamlar əqrəbə, ilana bənzədilir.
D) Boyun yox, ürəyin böyüklüyünün lazım olduğu bildirilir.
E) Kiçik adama nəvaziş etməyin böyük adama yaraşmadığı vurğulanır.

**48.** "Koroğlu ilə Bolu bəy" ("Koroğlu" dastanı) qoluna aid klasterdə rəqəmlərin yerinə yazılmalı ifadələri müəyyən edin:




A) 1 - Hasan paşa, 2 - Koroğlunu tutur.
B) 1 – Bolu bəy, 2 - Çənlibelə gedir.
C) 1 - Mehtər Murtuz, 2 – Koroğlunu tanıyaraq Bolu bəyə bildirir.
D) 1 – Ələmqulu xan, 2 – Koroğlunu quyuya salır.
E) 1 – Hasan paşa, 2 – Dünya xanımı gəzmək adı ilə Ərzincana göndərir.

**49.** Hansı obraz haqqında məlumat verilməmişdir? ("Kitabi-Dədə Qorqud")
*1. Qazanın qardaşıdır.* *2. Qıyan Səlcik oğludur.*
*3. Ulaşın nəvəsidir.* *4. Xan qızıdır.*
A) Uruz B) Beyrək C) Qaragünə
D) Burla xatun E) Dəli Dondaz

**50.** Fikirlərdən biri epik növə aid edilə ***bilməz***:
A) Epik növdə həyat hadisələri, əsasən, obrazların danışığı, davranışı və hərəkəti ilə ifadə edilir.
B) Əfsanə, təmsil, dastan epik növün janrlarıdır.
C) Epik əsərlərdə təhkiyə ilə yanaşı, təsvir də mühüm yer tutur.
D) Epik növün elə janrları var ki, həm nəsrlə, həm də nəzmlə yazılır.
E) İnsanın mənəvi aləminin, xarici görkəminin, məişətinin təsvirinə epik növdə geniş yer verilir.

## TARİX

**51.** - *XVI əsrin ikinci yarısı*
- *XVII əsrin birinci yarısı*
- *XVIII əsrin ikinci yarısı*

Verilmiş dövrlərdən heç birinə aid ***olmayan*** hadisəni müəyyən edin:

A) Səfəvilər və Şeybanilər arasında müharibənin baş verməsi
B) Səfəvi və Osmanlı dövlətləri arasında sülh müqaviləsinin imzalanması
C) Qazax və Borçalının Şəki xanlığına birləşdirilməsi
D) Hörmüzün portuqaliyalılardan azad edilməsi
E) Hacı Davudun Osmanlı sultanı tərəfindən Şirvan hakimi olaraq tanınması

**52.** Eyni ildə baş vermişdir:
1. Rusiya ilə Qacarların ordusu arasında Zəyəm yaxınlığında döyüş
2. Bakı xanlığının Rusiya tərəfindən işğal edilməsi
3. Səlim xanın Şəkidə Rusiya əleyhinə üsyan qaldıraraq rus qoşunlarını xanlıqdan çıxarması
4. Qarababa döyüşü
5. Quba xanı Şeyxəli xanın Gilgilçay yaxınlığında rus qoşunlarını məğlub etməsi

A) 1,3,4 B) 2,3,5 C) 2,3 D) 2,4 E) 1,5

**53.** Səfəvi hökmdarları şah Süleyman və şah Sultan Hüseynin hakimiyyətləri dövrü üçün oxşar cəhətdir:

A) Xəzərsahili Azərbaycan torpaqlarına rus ordusunun hərbi yürüşləri
B) Osmanlılarla sülh müqaviləsinin bağlanması
C) əhalinin və onun əmlakının siyahıya alınması
D) əfqanların İsfahanı tutması
E) rus tacirlərinin mənafeyinə uyğun müqavilə imzalanması

**54.** Uyğunluğu müəyyən edin:

| **1. XVIII əsrin 50-ci illəri** | **2. XVIII əsrin 70-ci illəri** |
|---|---|
| a. Qarabağ xanlığının Urmiya xanlığından asılı hala düşməsi | a. Qarabağ xanlığında İbrahimxəlil xanın hakimiyyətə gəlməsi |
| b. Quba və Şamaxı xanlarının Şəki xanlığına qarşı birləşməsi | b. Ağa Məhəmməd xan Qacarın Şuşaya yürüşü |
| c. Bakı xanlığının Quba xanlığına birləşdirilməsi | c. Rusiya ilə Osmanlı arasında müharibə |

A) 1-a,c; 2-a,b B) 1-b; 2-b,c C) 1-a,b; 2-c
D) 1-a,b; 2-a E) 1-b,c; 2-a

**55.** Hadisə – nəticə əlaqəsinin doğru verildiyi cavabları müəyyən edin:

| | **Hadisə** | **Nəticə** |
|---|---|---|
| 1 | Mustafa xanın hakimiyyətə gəlməsi | Şamaxı xanlığının güclənməsi |
| 2 | Xalq üsyanının baş verməsi | Gəncə xanlığında ikihakimiyyətliliyə son qoyulması |
| 3 | Qubalı Fətəli xanın vergi islahatı keçirməsi | Vergilərin mahal naibləri tərəfindən toplanılmasına başlanılması |
| 4 | Qızılqaya xəyanəti | Kərim xan Zəndin bir sıra Azərbaycan xanlarını əsir götürməsi |

A) 2,4 B) 1,2 C) 1,3 D) 3,4 E) 2,3

**56.** Nadir şahın daxili siyasətinə aiddir:

A) rəiyyətin ordudan uzaqlaşdırılması
B) idarə aparatında və vergi sahəsində islahatların keçirilməsi
C) din xadimlərinin dövlət idarəçiliyindəki mövqeyinin möhkəmləndirilməsi
D) Mərkəzi Asiya və Hindistana yürüş etməsi
E) ayrı-ayrı tayfa başçılarının mövqeyinin gücləndirilməsi

**57.** Doğru bəndi müəyyən edin:

1. Osmanlı qoşunlarının Azərbaycandan çıxarılması nəzərdə tutulurdu
2. Kürdən cənubda yerləşən Xəzərsahili vilayətlər Səfəvilərə qaytarılırdı
3. Qarabağ xanlığının müstəqil daxili siyasətinə təminat verilirdi
4. Xəzər dənizində yalnız Rusiyaya hərbi donanma saxlamaq hüququ verilirdi

| | Rəşt müqaviləsi | Bağdad müqaviləsi | Kürəkçay müqaviləsi | Gülüstan müqaviləsi |
|---|---|---|---|---|
| A) | 2 | 4 | 3 | 1 |
| B) | 3 | 1 | 4 | 2 |
| C) | 3 | 1 | 2 | 4 |
| D) | 4 | 2 | 1 | 3 |
| E) | 2 | 1 | 3 | 4 |

**58.** 1805-ci ildə Rusiya tərəfindən işğal edilmiş xanlıqlardan ***deyil:***




A) 1, 3 B) 2, 5 C) 3, 4 D) 1, 4 E) 3, 5

**59.** Səfəvi hökmdarı şah II Təhmasibin hakimiyyəti dövrünə aiddir:

1. Paytaxtın İsfahan şəhəri olması
2. Sənətkarlardan tamğa vergisinin alınması
3. Kitab çapı işinin ilk dəfə təşkil edilməsi
4. Osmanlı dövləti ilə sülh müqaviləsinin imzalanması
5. Xəzərsahili torpaqların geri qaytarılması

A) 2,5 B) 1,4 C) 1,3 D) 3,5 E) 2,4

**60.** Uyğunluq ***pozulmuşdur***:

A) XVI əsrdə mərkəzi Təbriz olan Azərbaycan bəylərbəyiliyini yaratdı – Şah I Abbas
B) Səfəvilər dövlətinin paytaxtı Təbriz şəhərindən köçürülmüşdü - XVI əsrin ortalarında
C) "Bayat savaşı" nəticəsində nüfuzu artmışdı - Qarabağ xanlığının
D) Səfəvilər dövründə Qarabağ bəylərbəyiliyinin tərkibinə daxil idi - Qazax və Borçalı
E) Azərbaycan yeni qurulmuş dövlətin tərkibində idi - XVIII əsrin 30-cu illərində

**61.** Uyğunluğu müəyyən edin

Azərbaycan xanlıqları XVIII əsrdə

| Qarabağ xanlığı | Şamaxı xanlığı |
|---|---|
| a. Kürəkçay müqaviləsinin imzalanması | a. Qarabağ xanlığı üzərinə hücum etməsi |
| b. Quba xanlığından asılı hala düşməsi | b. Dərbənd xanlığı ilə həmsərhəd olması |
| c. Ağa Məhəmməd şah Qacarın hücumuna məruz qalması | c. Ərazisində ikihakimiyyətliliyin olması |

A) 1a, 2ac B) 1c, 2ac C) 1ac, 2bc
D) 1bc, 2ab E) 1c, 2bc

**62.** XVIII əsrin 30-cu və 90-cı illəri Azərbaycan tarixinə aid oxşar cəhət:

A) Bakı xanlığının Çar Rusiyasının hücumlarına məruz qalması
B) işğalçıların ölkə ərazisini tərk etməyə məcbur olması
C) yeni dövlətin yaranaraq bütün ölkə torpaqlarını vahid dövlətdə birləşdirməsi
D) feodal dağınıqlığı dövrünün başlaması
E) xanlıqların Azərbaycan torpaqlarını birləşdirməyə çalışması

**63.** Gülüstan müqaviləsi ilə başa çatan müharibənin gedişində Azərbaycanda:

A) Gəncə xanlığı ilə işğalçılar arasında Quruqobu döyüşü baş verdi.
B) Sisianovun başçılığıq etdiyi rus qoşunları Qarababa döyüşündə məğlub edildi.
C) İrəvan xanlığı Rusiyanın hakimiyyəti altına düşdü.
D) Xəzər dənizində donanma saxlamaq hüququ yalnız Rusiyaya verildi.
E) Quba əyalətində Rusiya işğalına qarşı üsyan baş verdi.

**64.** Sxemə uyğun cavabı müəyyən edin.




A) 2,4 B) yalnız 3 C) 2,3,5
D) 1,5 E) 1,4

**65.** Azərbaycanın cənub xanlıqlarından ***deyil***:

1. Təbriz 2. Lənkəran 3. Qarabağ
4. Qaradağ 5. Naxçıvan 6. Urmiya

A) 1,4,5 B) 2,3,5 C) 1,2,6 D) 2,3,6 E) 3,4,5

**66.** Cədvəldə verilmiş hadisələrdən hansıların yerlərini dəyişdirdikdə doğru xronoloji ardıcıllıq alınar.

| | |
|---|---|
| 1 | Rəşt müqaviləsi |
| 2 | Kirmanşah müqaviləsi |
| 3 | II Təhmasibin hakimiyyətdən uzaqlaşdırılması |
| 4 | Gəncə müqaviləsi |

A) 1⟷2 B) 2⟷3 C) 2⟷4
D) 3⟷4 E) 1⟷3

**67.** Tiflisdəki rus qoşununun başçısı polkovnik S.Burnaşev Peterburqa yazmışdı: *"İrəvan şəhəri Azərbaycana məxsus olduğundan Osmanlı Sultanı onun heç zaman Gürcüstanın tabeliyinə verilməsinə razı olmayacaqdır. Qarabağlı İbrahimxəlil xan və digər Azərbaycan xanları İrəvanı gürcülərin işğalından xilas etmək üçün birləşmişlər."*

Mətni oxuyun. Mətnə və dərslikdəki məlumatlara əsasən doğru cavabı müəyyən edin.

A) Azərbaycan xanları Rusiya işğalına qarşı vahid cəbhədə birləşərək bu işğalın qarşısını aldılar
B) Osmanlı sultanı İrəvanın qədim Osmanlı şəhəri olduğunu iddia edirdi
C) Dövrün böyük dövlətləri İrəvanın Azərbaycan şəhəri olduğunu təsdiq edirdi
D) İrəvan xanlığı Osmanlı sultanı, gürcü çarı və Azərbaycan xanlıqlarına qarşı eyni zamanda mübarizə aparmaq üçün Rusiyadan yardım istəmişdi
E) Osmanlı dövləti və Azərbaycan xanlıqları İrəvanı əllərində saxlamaq üçün ittifaq qurmuşdular

**68.** Səfəvi – Osmanlı müharibələrinə aid ***olmayan*** döyüş:

A) Çıldır gölü yaxınlığında döyüş
B) Niyazabad döyüşü
C) Sufiyan döyüşü
D) Ballıqaya döyüşü
E) Sınıq körpü döyüşü

**69.** - *Orta əsrlərin tarixçilərindən idi*
- *Şah I Abbasın sarayında dəftərxanada katib vəzifəsinə çalışmışdı*

Göstərilənlər aiddir:

A) Saib Təbriziyə
B) Məhəmməd Tahir Vahidə
C) Mirzə Məhəmməd Şirvaniyə
D) Yusif Qarabağlıya
E) İsgəndər bəy Münşiyə

**70.** Aşağıda verilmiş ifadələrdən neçəsi doğrudur?
1. *Şamaxı xanlığı Kürəkçay müqaviləsini 1805-ci ilin sonlarında imzalamışdı*
2. *"Andlı öhdəlik" Balakən ərazisində imzalanmışdır*
3. *Qacarlar dövlətinin hökmdarı Abbas Mirzə Sultanbud döyüşündə qalib gəlmişdi*
4. *XVIII əsrin sonlarında İlisu sultanlığında hakimiyyət irsən keçirdi.*
5. *Xanlıqlar dövründə məliklər və elbəyilər əhalinin feodal sosial qrupuna daxil idilər*

A) 1-i B) 3-ü C) 2-i D) 4-ü E) 5-i

**71.** XVIII əsrin sonlarında Azərbaycan iqtisadiyyatının səciyyəvi cəhətləri:
1. *Ticarətdə vahid ölçü və çəkidən istifadə edilməsi*
2. *Bakının xarici bazarlara çıxışda mühim liman şəhəri olması*
3. *Əsas vergi növünün malcəhət olması*
4. *Vergi toplanması üçün ümumi qaydanın olması*

A) 1,2 B) 1,3 C) 2,4 D) 2,3 E) 1,4

**72.** Xəritədə rəqəmlərlə işarələnmiş xanlıqlardan heç birinə aid ***olmayan*** cavabları (cavabı) müəyyən edin:




1. Əsası Kəngərli tayfası tərəfindən qoyulmuşdu.
2. 1755-ci ildə Qacarlar tayfasından olan sülalə hakimiyyətə gəlmişdi.
3. Qarabağ xanlığından asılı hala düşmüşdü
4. Quba xanlığına tabe olmuşdu
5. Azərbaycan torpaqlarını vahid dövlətə birləşdirməyə çalışırdı

**73.** Xronoloji ardıcıllığı müəyyən edin
1. Şah I Abbasın Bağdad üzərinə yürüşü
2. Qəsri-Şirin müqaviləsinin bağlanması
3. Səfəvi dövləti ilə İngiltərə arasında "Əbədi dostluq" müqaviləsinin bağlanması

**74.** 19-cu əsrin əvvəllərinə aid ***olmayanları*** müəyyən edin:
1. Osmanlı dövlətinin Rusiyaya müharibə elan etməsi
2. Cavad xanın Gəncədə hakimiyyətə gəlməsi
3. II Yekaterinanın əmri ilə rus ordusunun Azərbaycanın şimal torpaqlarını işğal etməyə çalışması
4. Ərəş sultanlığının ləğv edilməsi
5. Fransa ilə Rusiya arasında müharibənin başlaması

**75.** Hacı Çələbi xan (1) ilə Qubalı Fətəli xanın (2) fəaliyyətlərini müqayisə edərək Eyler-Venn diaqramına uyğun gələn cavabı müəyyən edin.




a. Qarabağ xanlığı üzərinə hücum etməsi
b. Vergi sistemini nizama salması
c. Şamaxı xanlığını asılı hala salması
d. Azərbaycanın şimal-qərb torpaqlarının gürcü çarları tərəfindən işğalının qarşısının alınması

## AZƏRBAYCAN DİLİ

**Mətni diqqətlə oxuyun və 76-85 – ci tapşırıqları mətn əsasında cavablandırın.**

◆ Abdulla ibn Cəfər adlı əliaçıq və zəngin bir adamın vaxtilə geniş meyvə bağı var imiş. Bir gün üzüm tinglərinin yanından keçəndə[1] o görür ki, yerə çömbəlmiş bir zənci qul əlində çörək tutub, bir köpək isə onun qarşısında quyruq bulayaraq ora-bura vurnuxur. Qara qul çörəkdən bir tikə qoparıb, həmin itin qabağına atır[2] və it onu acgözlüklə yeyir. Bu hal qulun əlindəki çörək bitənə qədər davam eləyir.

▲ Gördüyü bu hadisədən təsirlənən Abdulla quldan soruşur:

– Sənə gündə neçə çörək verirlər[3] ki?

Qul deyir: "Elə olan-qalanım bu idi".

Abdulla təəccüblə:

– Bəs niyə öz ........... bu yiyəsiz itə verirsən? – deyə soruşanda qul belə deyir:

– Buralara çox nadir hallarda itlər gəlib çıxırlar. Onun uzaqdan gəldiyini, əldən düşdüyünü[4] və ac olduğunu düşününcə yavan çörəyimi ona verdim.

Öz səxavəti ilə ad çıxaran Abdulla soruşdu:

– Bəs indi sən özün nə yeyəcəksən?

▼ Qul əlini yelləyib: "Birtəhər keçinərəm", - deyir.

● Abdulla ibn Cəfər öz-özlüyündə düşünür: "Guya mən əliaçıqlığım və comərdliyimlə bu eldə, obada ad çıxarmışam[5]. Amma, sən demə, bu imkansız qara qulun könlündəki səxavət mənimkindən qat-qat çox imiş!"

■ Bir dəfə həmin qul ağasının yeganə oğlunu suda batmaqdan xilas edir. Buna görə də o, əvvəlcə qula azadlıq bəxş edir, sonra isə öz üzüm bağını ona bağışlayır.

**76.** Altından xətt çəkilmiş ifadəni hansı sözlə əvəz etmək olar?

A) gözü tutmaq
B) gözündən kənara qoymamaq
C) gözündən tökmək
D) gözünə təpmək
E) gözü ilə yemək

**77.** Üzərində rəqəm yazılmış sözlərin həqiqi (H) və məcazi (M) mənada işlənməsi ilə bağlı düzgün cədvəli müəyyən edin.

A)

| H | M |
|---|---|
| 1 | 4 |
| 2 | 5 |
| 3 | |

B)

| H | M |
|---|---|
| 1 | 2 |
| 3 | 4 |
| | 5 |

C)

| H | M |
|---|---|
| 1 | 2 |
| | 3 |
| | 4 |
| | 5 |

D)

| H | M |
|---|---|
| 4 | 1 |
| 5 | 2 |
| | 3 |

E)

| H | M |
|---|---|
| 2 | 1 |
| 4 | 3 |
| 5 | |

**78.**

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. İt ac və yorğun olduğu üçün qul ona olan-qalan çörəyini verir. | 3. Uzaq olduğu üçün oralara itlər çox nadir halda gedib çıxırlar. |
| 2. Abdulla ibn Cəfər zəngin bir adam olduğu üçün comərd idi. | 4. Abdulla ibn Cəfər qula əvvəlcə azadlıq bəxş edir, sonra isə bir kisə qızıl bağışlayır. |

A) 1,2 B) 2,3 C) 2,4 D) 1,4 E) 1,3

**79.** Hansı cümlədəki fərqləndirilmiş söz mətndə çərçivə daxilində verilmiş sözlə eyni mənada verilmişdir?

A) İçəri **keçin**, ev sahibi sizi gözləyir.
B) Anam onların köçməyini eşitcək, yəqin ki, həmən dəqiqə **keçinəcək**.
C) Kərim baba naxırı otardığı üçün aldığı cüzi aylıq ilə **keçinərdi**.
D) Dağlardan əsən sübh küləyinin nəfəsi şairi üşüdür, Afaq isə artıq **keçinirdi**.
E) Ehtimal ki, "**keçinmək**" sözü "köçmək" feili ilə bağlıdır və əslində, "keçinmək" yox, "köçünmək" kimi olub.

**80.** Mətnin məzmununa əsasən düzgün ardıcıllığı müəyyən edin.
1. Qulun çörəkdən bir tikə qoparıb itə atması
2. İtin onun qarşısında quyruq bulayaraq vurnuxması
3. Abdulla ibn Cəfərin qulu mükafatlandırması
4. İtin çörəyi acgözlüklə yeməsi
5. Zəngin adamın gördüyü hadisədən təsirlənməsi

A) 5,1,2,4,3 B) 1,2,4,5,3 C) 5,1,4,2,3
D) 2,1,4,5,3 E) 1,4,2,3,5

**81.** Qarşısında işarə qoyulmuş hansı hissədə mətnə uyğun olmayan cümlə verilmişdir?
A) ⧫ B) ▲ C) ▼ D) ● E) ■

**82.** Mətndə suallardan birinə cavab tapmaq mümkün ***deyil***.
A) Abdulla ibn Cəfər haradan keçəndə qulla rastlaşdı?
B) Abdulla ibn Cəfər qulu niyə sorğu-suala tutur?
C) Qul nə üçün çörəyi itə verir?
D) Abdulla ibn Cəfər qulu nə ilə mükafatlandırır?
E) Azad və zəngin olduqdan sonra qulun xasiyyəti dəyişirmi?

**83.** Hansı deyim mətndən çıxan əsas fikrə uyğundur?
A) İt sənə dost olar, bir sümük atsan. (N.Gəncəvi)
B) Səxavətin həddi var, əgər onu aşsalar, ifrat olar. (İmam Həsən Əskəri)
C) Səxavət dövlətdən deyil, təbiətdəndir. (Atalar sözü)
D) Bağa bax, üzüm olsun, yeməyə üzün olsun. (Atalar sözü)
E) Səxavətli olmaq yaxşı şeydir, barmaqlarından biri bükülü olsa. (Elman Həbib)

**84.** Mətndə nöqtələrin yerinə uyğun gələn sözü müəyyən edin.
A) taleyini B) hissəni C) varını
D) qismətini E) bəxtini

**85.** Aşağıdakı izahlardan hansına uyğun mətndə söz ***yoxdur***?
A) Calaq vasitəsilə yetişdirilən ağac şitili
B) Öz üstünlüklərini, məziyyətlərini gözə çarpdırmağı, öz xidmətləri ilə qürrələnməyi sevməmə; sadəlik
C) Sahibi olmayan, sahibsiz
D) Mərdlik, nəciblik, alicənablıq
E) Boş-boşuna o tərəf-bu tərəfə getmək; qurdalanmaq, yerində hərəkət etmək, çalışıb-çapalamaq

**86.** Hansı həmcins üzvlü cümlə ***deyil***?
A) Qədim türklər övladı vətən üçün, dövləti qorumaq üçün hazırlayırdılar.
B) Oğlundan xəbər tuta bilmədiyi üçün ana var-gəl edir, çıxış yolu axtarırdı.
C) İnsan zəkası inkişaf etdikcə tağbəndli məbədlər, təmtəraqlı imarətlər, uca göydələnlər bütün dünyanı tutur.
D) Qoca Sevgini sağ-salamat sahilə çatdırdı, özü isə yoluna davam etdi.
E) Mütaliə insanı bəd əməllərdən saxlayar və onu yaxın-uzaq keçmişlərə aparar. (Dekart)

**87.** "Bu kitabları nə üçün aldın?" sual cümləsinə məqsəd zərfliyi formasında verilmiş cavabı müəyyən edin.
A) Fəlsəfə ilə maraqlandığıma görə
B) Müəllim tapşırdığı üçün
C) Dostum məsləhət bildiyi üçün
D) Dünyagörüşümü zənginləşdirmək üçün
E) Mütaliəyə ehtiyacım olduğundan

**88. Doğru** və **yanlış** fikirləri müəyyən edin.







**89.** Sual işarəsinin yerinə yazılmalı olan söz hansı cümlədədir?




A) Artıq axtardığı qəhrəmanı tapmışdı.
B) Dahilərin fikirləri, adətən, dağınıq olur.
C) Usta daşı gəncin ovcuna qoyur və əlini bağlayır.
D) Balıqçı danışılanları diqqətlə dinlədi.
E) Bilikli adamı hər yerdə hörmətlə qarşılayırlar.

**90.** Cədvələ əsasən **doğru** fikirlərdir:

| İsmi birləşmə | Feili birləşmə | Mürəkkəb söz birləşməsi |
|---|---|---|
| 1. sənin dediyin<br>2. gördüyün mənzərə | 3. şəhərdə olarkən<br>4. azad yaşamağımız | 5. bütün elmlərin açarı<br>6. anası üçün darıxan |

A) 1,2,5  B) 2,4,5,6  C) 2,3,4,5
D) 1,2,4  E) 1,4,5

**91.** Verilmiş cümlə əsasında Eyler-Venn diaqramındakı ***səhvləri*** müəyyən edin.

*1. Düşməni bağışlamaq dostu bağışlamaqdan asandır. (Nitsşe)*
*2. Həyatda heç vaxt güzəştə getməmək dəlilik əlamətidir. (Demokrit)*




A) 2,4,5  B) 1,4,6  C) 3,5,6  D) 1,5,6  E) 1,2,4

**92.** Klasteri tamamlayan nümunələri müəyyən edin.




*1. İtiriləsi bir şeyi olmayan adamlara baş qoşmayın.*
*2. Xoşbəxtlikdə qürrələnmə, bədbəxtlikdə sınma.*
*3. Kimdənsə xoşu gəlmədiyini gizlətsin.*
*4. "Kirpi" jurnalı müxtəlif nəsillərə mənsub olan peşəkar karikaturçu rəssamları bir araya gətirə bildi.*
*5. Niyyətimizi bildirmədən hərəkət edək.*
*6. Dostluq əlaqələrinin qırılmasına imkan vermə.*

A) 2,3,4  B) 1,3,6  C) 2,4,5  D) 3,4,5  E) 1,2,6

**93.** *Rüstəm orta məktəbi bitirəndən sonra indiki Sankt-Peterburqa təhsilini davam etdirmək üçün getdi.* Verilmiş cümlənin sintaktik təhlil sxemini müəyyən edin.

A)
B)
C)
D)
E)



**94.** Nümunələr içərisində hansı sxemə uyğun söz birləşməsi ***yoxdur***?

*tunc heykəl, içəri daxil olan, başqasının sarayı, gülə-gülə gedən*

| | | | |
|---|---|---|---|
| A) | isim | + | isim |
| B) | sifət | + | isim |
| C) | feili bağlama | + | feili sifət |
| D) | zərf | + | feili sifət |
| E) | əvəzlik | + | isim |

**95.** İki müxtəlif cümlə üzvünün sualı kimi işlənə bilir:

1. Nə zaman? 2. Necə? 3. Nə üçün?
4. Nə edəcək? 5. Nə? 6. Hara?

A) 1,2,3,5 B) 2,3,5,6 C) 2,3,4,5
D) 1,4,5 E) 2,4,6

**96.** Hansını cümlənin ilk sözü kimi işlətmək olmur?

A) ümumiləşdirici sözü B) ədatı
C) təyini D) əlavəni
E) söz birləşməsinin asılı tərəfini

**97.** Sintaktik əlaqə baxımından yalnız asılı tərəf kimi işlənən sözləri göstərin.




**98.** Cümlədə hansı xanaların yerinə bərpa olunmalı durğu işarələri eyni məqsədə xidmət edir?

Dərman bitkiləri [1] yəni [2] itburnu [3] çaytikanı [4] çobanyastığı [5] zəncirotu respublikamızın müxtəlif bölgələrində bitir.

**99.** Bəzi mürəkkəb adların birinci tərəfi dırnaq içində yazılmalıdır.

**Hansı nümunələr bu fikrə uyğun gəlmir?**

Şəhidlər — 1. xiyabanı; 2. poeması

Cücələrim — 3. mahnısı; 4. kafesi

Şirvan — 5. qoruğu; 6. şəhəri

**100.** Əlavələrlə bağlı uyğunluğu müəyyən edin.

1. Mübtədanın əlavəsi
2. Tamamlığın əlavəsi
3. Zərfliyin əlavəsi

a. Kəndli qərargaha – sərkərdənin yanına gəldi.
b. 1795-ci ilə qədər Odessa – Ukraynanın bu şəhəri Hacıbəy adlanmışdır.
c. Ə. Ələkbərlinin – Otellonun hər kəlməsi müstəmləkəçi imperialistlərə qarşı odlu ittiham kimi səslənirdi.
d. İçərişəhəri – Azərbaycan memarlığının bu unikal abidəsini qoruyaq.
e. Bu kiçik kənd uzaqda – meşənin qurtaracağında idi.

## RİYAZİYYAT

**101.** $\left(1+\frac{b^2+c^2-a^2}{2bc}\right):\frac{b+c-a}{bc}$ ifadəsini sadələşdirin

A) $\frac{b+c+a}{4}$ B) $\frac{b+c+a}{2}$ C) $\frac{b+c-a}{2}$

D) $b+c-a$ E) $b+c$

**102.** İfadəni sadələşdirin:

$$(y^{-2}-x^{-2})^{-1}\cdot(x^{-1}-y^{-1})$$

A) $-\frac{xy}{x+y}$ B) $\frac{x+y}{x}$ C) $\frac{x-y}{xy}$

D) $\frac{y}{x-y}$ E) $\frac{x}{x+y}$

**103.** $\sqrt{7-4\sqrt{3}}-\sqrt{7+4\sqrt{3}}$ ifadəsinin qiymətini tapın

A) 4 B) $1-\sqrt{3}$ C) 0

D) $-2\sqrt{3}$ E) $\sqrt{3}$

**104.** Kökləri $x_1$ $və$ $x_2$ olan $x^2-px+49=0$ tənliyində $\sqrt{x_1}+\sqrt{x_2}=8$ olarsa, p=?

A) 50 B) 24 C) 48 D) 64 E) 45

**105.** İki ardıcıl cüt natural ədədin tərslərinin fərqi $\frac{1}{144}$ -ə bərabərdir. Bu ədədlərin cəmini tapın

A) 26 B) 30 C) 34 D) 38 E) 42

**106.** $\frac{x-3}{2-\frac{6}{x-4}}$ ifadəsində dəyişənin mümkün qiymətlər çoxluğuna daxil olmayan ədədlərin kvadratları cəmini tapın

A) 41 B) 61 C) 65 D) 52 E) 58

**107.** 0,00008 və 310000000 ədədlərini standart şəkildə yazın və qiymətli hissələrinin hasilini tapın

A) 248 B) 0,248 C) 2,48

D) 0,0248 E) 24,8

**108.** Sahəsi 24,5 $sm^2$ və bucaqları fərqi 120° olan rombun perimetrini tapın

A) 40 sm B) 32 sm C) 24 sm

D) 28 sm E) 15 sm

**109.** Diaqonalı $4\sqrt{2}$ sm olan kvadratın sahəsi eni 2 sm olan düzbucaqlının sahəsinə bərabərdir. Düzbucaqlının diaqonalını tapın

A) $5\sqrt{2}$ B) $8\sqrt{2}$ C) $3\sqrt{5}$

D) $6\sqrt{2}$ E) $2\sqrt{17}$

**110.** Vuruğu kök işarəsi altına salın: $-2c\sqrt{-c}$

A) $-\sqrt{-4c^2}$ B) $\sqrt{-4c^2}$ C) $\sqrt{-2c^3}$

D) $\sqrt{-4c^3}$ E) $\sqrt{4c^3}$

**111.** ABC üçbucağında $\angle C = 90°$; CD median; CD=15 sm; AC=18 sm -dir. O medianların kəsişmə nöqtəsi olarsa, AOC üçbucağının sahəsini tapın

A) 144 sm² B) 72 sm² C) 36 sm²
D) 128 sm² E) 96 sm²

**112.** Oturacağı AC olan bərabəryanlı ABC üçbucağında M və N nöqtələri uyğun olaraq AB və BC tərəflərinin orta nöqtələridir. AC:BM=3:2 və $P_{\Delta BMN} = 33\ sm$ olarsa, AC=?

A) 18 sm B) 12 sm C) 6 sm
D) 3 sm E) 11 sm

**113.** $\frac{1}{\sqrt{7}+\sqrt{5}} + \frac{1}{\sqrt{9}+\sqrt{7}} + \frac{1}{\sqrt{11}+\sqrt{9}} + \cdots + \frac{1}{\sqrt{45}+\sqrt{43}}$ ifadəsinin qiymətini tapın

A) $\sqrt{2}$ B) $\sqrt{5}$ C) $2\sqrt{5}$
D) $2\sqrt{7}$ E) $\sqrt{7}$

**114.** Kökləri $x^2 + 8x + 15 = 0$ tənliyinin köklərinin tərsi olan kvadrat tənliyi seçin

A) $15x^2 + 8x + 1 = 0$ B) $8x^2 + x + 15 = 0$
C) $8x^2 + 15x + 1 = 0$ D) $x^2 + 8x - 15 = 0$
E) $x^2 + \frac{1}{8}x + \frac{1}{15} = 0$

**115.** $a < b$ olarsa, $\sqrt{b^3 - 3b^2a + 3ba^2 - a^3}$ ifadəsini sadələşdirin.

A) $(b-a)\sqrt{b-a}$ B) $(a-b)\sqrt{b-a}$
C) $(a-b)\sqrt{a-b}$ D) $(b-a)\sqrt{a-b}$
E) $(b-a)^2\sqrt{b-a}$

**116.** $2 \cdot x^{\frac{2n-6}{5}} - 3x - n = 0$ kvadrat tənliyinin kökləri hasilini tapın.

A) -4 B) 5 C) 6 D) 7 E) -8

**117.** $ax^2 + bx + c = 0$ kvadrat tənliyinin kökləri cəmi kökləri hasilindən 4 dəfə çoxdur. $a + b + c = 0$ olarsa, tənliyin kökləri hasilini tapın.

A) $-\frac{1}{3}$ B) $-\frac{1}{4}$ C) $-3$
D) $-\frac{1}{5}$ E) $\frac{1}{3}$

**118.** Birinci fəhlə bir işi ikincidən 3 dəfə tez yerinə yetirir. İkisi birlikdə həmin işi 3 saat 45 dəq ərzində yerinə yetirərsə, birinci fəhlə həmin işi təklikdə neçə saata yerinə yetirər?

A) 4 saat B) 5 saat C) 6 saat
D) 7 saat E) 10 saat

**119.** Bərabərtərəfli üçbucağın daxilində götürülmüş hər hansı nöqtədən üçbucağın tərəflərinə qədər olan məsafələrin cəmi $4\sqrt{3}$ sm olarsa, üçbucağın tənbölənlərinin cəmini tapın.

A) 36 B) $12\sqrt{3}$ C) 12
D) 16 E) $18\sqrt{2}$

**120.** Bərabəryanlı trapesiyanın kor bucaq təpəsindən çəkilən hündürlüyü uzunluğu 36 sm olan oturacağını 4:5 nisbətində iki hissəyə ayırır. Trapesiyanın orta xəttini tapın.

A) 18 B) 22 C) 16
D) 20 E) 24

**121.** Oturacaqları BC=4 sm və AD=6 sm olan bərabəryanlı trapesiyanın iti bucağı 60°-dir. $P_{ABCD}$-ni tapın.




A) 10 sm B) 30 sm C) 12 sm
D) 14 sm E) 20 sm

**122.** ABCD dördbucaqlıdır. ∠D=120°, ∠C=80°, AE və BE tənbölənlərdir. ∠AEB=?




**123.** ABCD trapesiyadır, ∠A +∠ D =90°; $P_{ABCD}$=?




**124.** Şəkildə $AB = 4$ , $AD = 2$ və $\angle ABC = 90°$, $BD \perp AC$ olarsa , $DC$ -ni tapın.




**125.** Qrafikləri verilmiş funksiyalar üçün uyğunluğu müəyyən edin.




a. x = -2,5 olduqda y = -8
b. y = 20 olduqda x+y = 45
c. x = -6 olduqda x+y = 3
d. y = 16 olduqda x = 8
e. x = -2 olduqda y = -10